# **Həftəlik** *Bülleten*

**084**
**07 Mart 2025**



- Xəbərlər
- Tədbirlər
- Görüşlər
- Tender və layihələr
- Dünya tikililəri

ATMİA

info@atmia.az www.atmia.az

**Bakıda 10-cu mikrorayon salınacaq.**

Bakıda yeni mikrorayon salınacaq.

Yeni mikrorayonun 2040-ci ilə qədərki dövrü əhatə edən "Bakı şəhərinin baş planı"na əsasən salınması nəzərdə tutulur.

Ekspertin sözlərinə görə, yeni mikrorayonun salınması üçün bu ərazinin seçilməsi də səbəbsiz deyil.

Qeyd edək ki, bu, Binəqədi rayonu ərazisində salınacaq 5-ci mikrorayon olacaq. Belə ki, bu rayonun inzibati ərazisində 4 mikrorayon 6, 7, 8 və 9-cu mikrorayonlar mövcuddur. Digər mikrorayonlar isə paytaxtın Nəsimi rayonu ərazisində yerləşir.



## Bu 7 şəhərdə 200 lift quraşdırılacaq - SƏRƏNCAM

Prezident İlham Əliyev Azərbaycanda çoxmənzilli binaların lift təsərrüfatının maddi-texniki bazasının möhkəmləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında Sərəncam imzalayıb. Sərəncama əsasən, Azərbaycanın 7 şəhərində çoxmənzilli binaların lift təsərrüfatının maddi-texniki bazasının möhkəmləndirilməsi məqsədilə "Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 16 dekabr tarixli 93-VIIQ nömrəli Qanununun tətbiqi ilə bağlı bir sıra məsələlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 27 dekabr tarixli 268 nömrəli Fərmanının 1.12.4.4.12-ci (Təhlükəsizlik, sosial-iqtisadi və digər tədbirlərin maliyyələşdirilməsi) abzasında nəzərdə tutulmuş vəsaitdən 9.940,0 (doqquz milyon doqquz yüz qırx) min manatı bu Sərəncama əlavə edilmiş siyahıya uyğun olaraq şəhər və rayon icra hakimiyyətlərinə ayrılıb. Maliyyə Nazirliyi Sərəncamda göstərilən məbləğdə maliyyələşməni təmin etməli, Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etməlidir.



**Qubadlının Mahruzlu kəndində birinci mərhələdə 190 ev inşa olunur.**

Otuz ilə yaxın davam edən işğal dövründə xarabalığa çevrilmiş Şərqi Zəngəzur bu gün özünün yeni inkişaf dövrünü yaşayır. “Böyük Qayıdış” proqramı çərçivəsində yenidən qurulan kəndlərdən biri də Qubadlının Mahruzlu kəndidir. Qubadlı rayonunun mərkəzindən 19 kilometr məsafədə yerləşən Mahruzlu kəndinin layihələndirilən ərazisi 197 hektardır. Birinci mərhələdə 40 hektar ərazidə 190 evin tikintisi aparılır. Burada ilkin mərhələdə 836 sakinin məskunlaşması nəzərdə tutulur. Cəbrayıl, Qubadlı, Zəngilan rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin icraçı direktoru Növrəs Cəfərov bildirib ki, hazırda evlərdə bir çox işlər tamamlanıb: “Mahruzlu kəndində 190 fərdi yaşayış evindən 135-də artıq dam işləri yekunlaşıb. Evlərin 75 faizinin fasad izolyasiya və suvaq işləri icra edilib. Daxili mühəndis-kommunikasiya işləri də başlayıb. Mahruzlu kəndində insanların rahat və firavan həyat sürməsi üçün bütün zəruri infrastrukturun yaradılması nəzərdə tutulub”. Kənddə tikilən evlər ikiotaqlı, üçotaqlı, dördotaqlı və beşotaqlıdır. Bütün evlərin üzərində Günəş panelləri quraşdırılacaq. Evlərin inşasında xüsusi izolyasiya materiallarından istifadə edilir. Bu isə enerjiyə qənaət etməyə səbəb olacaq. Layihələndirmə işləri aparılarkən zəruri kommunikasiya xətləri ilə bərabər, ərazinin relyefi də nəzərə alınır və orada yağış, eləcə də sel sularının idarə olunması üçün tədbirlər görülür. Mahruzlu kəndində qeyri-yaşayış obyektlərinin - məktəb binası, uşaq bağçası, inzibati bina və çoxfunksiyalı binanın tikintisi də nəzərdə tutulur.



**Azərbaycanda ilk dəfə SPC dekor döşəmələri istehsal ediləcək - 4 milyon investisiya!**

İqtisadi Zonaların İnkişafı Agentliyinin (İZİA) idarəçiliyində olan Ağdam Sənaye Parkının rezidenti "Mister Décor" MMC-nin SPC dekor döşəmələrin istehsalı müəssisəsinin inşası yekunlaşmaq üzrədir. Artıq tikinti işlərinin 80%-dən artıq hissəsi bitib və görülən işlərə 4 milyon manata yaxın investisiya yatırılıb. İZİA-dan verilən məlumata görə, ümumi investisiya dəyəri 6 milyon manat təşkil edəcək müəssisənin bu il fəaliyyətə başlaması planlaşdırılır. İllik istehsal gücü 1,5 milyon $m^2$ olan müəssisədə 70 nəfərin daimi işlə təmin edilməsi nəzərdə tutulur. Müəssisədə iş 2 növbəli rejimdə təşkil olunacaq. SPC döşəmələrinin hazırlanmasında xammal kimi karbonat-kalsium və PVC məhlulunun qarışığından istifadə ediləcək ki, bu da oda, nəmişliyə dözümlüdür və tam gigiyenik məhsuldur. Hazırda ölkədə bu sözügedən məhsullara olan tələbat Çindən, Rusiyadan və Hindistandan edilən idxal hesabına ödənilir. Müəssisənin fəaliyyətə başlaması ilə bu məhsula plan tələbat ödəniləcək.

Qeyd edək ki, “Mister Décor” MMC hazırda Ağdam Sənaye Parkında divar kağızlarının istehsalı ilə məşğuldur.



**Ağdam Sənaye Parkının rezidenti ilk dəfə olaraq beynəlxalq sərgidə iştirak edir.**

“Made In Azerbaijan” brendi olan divar kağızları ilk dəfə olaraq beynəlxalq sərgidə nümayiş etdirilir. Bu barədə İqtisadi Zonaların İnkişafı Agentliyindən (İZİA) məlumat verilib. Bildirilib ki, agentliyin idarəçiliyində olan Ağdam Sənaye Parkının rezidenti “Mister Decor” MMC Çinin Pekin şəhərində keçirilən Beynəlxalq Bina Dekorasiyaları və Materialları Sərgisində öz stendi ilə təmsil olunur.

"Ziyarətçilər tərəfindən maraqla qarşılanan stendə şirkət tərəfindən istehsal edilən məhsullara dair nümunələr “Made in Azerbaijan” brendi ilə sərgi iştirakçılarına nümayiş etdirilir. Sərgi 6-9 mart tarixlərini əhatə edəcək", - deyə məlumatda vurğulanıb.



**Türkiyədən Azərbaycana sement ixracı azalıb.**

Türkiyə 2025-cü ilin fevral ayında Azərbaycana sement ixracını 2024-cü ilin eyni dövrü ilə müqayisədə 9,3 faiz azalaraq 7 milyon 99 min 27 dollara çatdırıb.

Bu barədə TurkicWorld-ə Türkiyə Ticarət Nazirliyindən məlumat verilib.

2025-ci ilin yanvar – fevral aylarında Türkiyədən Azərbaycana sement məhsulları ixracı ötən ilin eyni dövrü ilə müqayisədə 11,1 faiz azalaraq, 16 milyon 671 min 79 dollara bərabər olub.

Qeyd edək ki, 2025-ci ilin yanvar-fevral aylarında Türkiyənin dünya bazarlarına sement ixracı 2024-cü ilin eyni ayı ilə müqayisədə 4,6 faiz azalaraq, 640 min 22 dollara bərabər olub.

"Bu ilin fevral ayında Türkiyə 321 min 456 dollar məbləğində sement ixrac edib ki, bu da keçən ilin fevral ayı ilə müqayisədə 7,7 faiz azdır," – deyə nazirlikdən bildirilib.

Qeyd olunub ki, son 12 ay ərzində (fevral 2024 – fevral 2025) Türkiyə 4 milyon dollar məbləğində sement ixrac edib.



**ATMİA Baş Katibi Şahanə Sarı Dubayda yerləşən Azərbaycan Ticarət Evinin rəhbəri Şahmar Kərimovla görüşüb.**

6 mart tarixində ATMİA Baş Katibi Şahanə Sarı Dubayda yerləşən Azərbaycan Ticarət Evinin rəhbəri Şahmar Kərimovla görüşüb. 2025-2026 iş planı müzakirə edilib. Yaxın və Orta Şərq ölkələrinə ixracata maraqlı olan, şirkət qurmaq istəyən üzvlərimiz əminliklə ATMİA ilə əlaqə saxlaya bilər. Tel.: 0502320781



**"MATANAT A" Ustalar Klubu, MİRVANA məhsulu üzrə -Ustaların Sertifikasiya Proqramını uğurla davam etdirir.**

"MATANAT A" Ustalar Klubu, MİRVANA məhsulu üzrə -Ustaların Sertifikasiya Proqramını uğurla davam etdirir. Sertifikasiya proqramı zamanı Quba şəhərində İtalyan texnologiyası ilə istehsal edilən MİRVANA haqqında təlim təşkil edilmişdir. 20-ə yaxın ustanın qoşulduğu təlimdə iştirakçılar yeni tətbiq formaları öyrəndilər və nəzəri biliklərini praktik məşğələlərlə möhkəmləndirdilər. MİRVANA-İtalyan texnologiyası ilə hazırlanan dekorativ boya ailəsidir: Artıq divarkağızı – oboy dövrü keçmişdə qaldı, MİRVANA dövrü başlayır. Geniş çeşidə malik olan MİRVANA-nın aşağıdakı növləri var:

• MİRVANA Effetto velluto - Məxmər effekti; • MİRVANA Effetto cristallo - Kristal effekti; • MİRVANA Effetto di doratura - Zər effekti; • MİRVANA Effetto perla - Mirvari effekti; • MİRVANA Effetto travertino - Travertin effekti; • MİRVANA Effetto antico - Antik effekti; • MİRVANA Effetto di marmo - Mərmər effekti; • MİRVANA Effetto di calcestruzzo - Beton effekti; • MİRVANA Effetto di vento - Külək effekti; • MİRVANA Effetto legno - Taxta effekti; • MİRVANA Primer decorativo - Dekorativ Astar; • MİRVANA Stucco veneziano - Venesiya effektli divar məcunu

Təlimin son günü sertifikasiya prosesi həyata keçirildi və nəticələrə uyğun olaraq, ustalar sertifikatlarla təltif edildilər. Qaynar xətt: +994 50 298 30 30






**ATMİA üzvü «BRPG» MMC**
**Şirkət haqqında:**

Building and Reconstruction Projects Group
BRPG , sahənin seçildiyi andan konsepsiyanın nəzərdən keçirilməsi, ərazi seçimi, baxış keçirilməsi, araşdırılması və təhlil edilməsi, layihələrin tərtib edilməsi, icazələrin alınması, podratçılarla danışıqlar, layihənin idarə edilməsi və istismara təhvil verilməsinə qədər bütün prosesdə iştirak edir.
«BRPG» şirkətinin direktoru Şərif-zadə Xəyal.

**Əlaqə məlumatları:**
Ünvan: Abdurrahim bey Hagverdiyev, 574. Baku, Azerbaijan
Tel: +994 (50) 225 61 11; +994 (12) 310-11-77 (ext.100)
E-mail: office@brpg.az
https://brpg.az/

**ATMİA üzvü "VEKA Rus" MMC**

**Şirkət haqqında:**

VEKA Rus VEKA AG, yüksək keyfiyyətli plastik pəncərə və qapı sistemlərinin inkişafı və istehsalı sahəsində dünya lideri olan bir şirkətdir. VEKA AG bazarda 1969-cu ildən fəaliyyət göstərir. Ana şirkət Zenderhorst, Almaniya, Şimali Reyn Vestfaliya yerləşir. Bu günə qədər VEKA pəncərə və qapı konstruksiyaları üçün dünyanın ən böyük plastik profillərindən biridir. Şirkətin istehsal etdiyi mahsullara: Plastik pəncərələr, Şəhərkənarı ev üçün plastik pəncərələr, Plastik qapilar, Eyvan və lociyaların şüşələnməsi və s. daxildir.

"VEKA Rus " MMC şirkətinin direktoru Andrey Taranuşiç.

**Əlaqə məlumatları:**

Ünvan: Azərbaycan, Bakı ş., Binəqədi rayonu, Binəqədi qəs., Söyüdlü küç.120

Telefon:+994124447318; +994502080526

E-mail: snuriyev@veka.ru

https://veka.az/

**Hörmətli sahibkarlar!**

7-13 aprel tarixində Almaniyanın Münhen şəhərində Avropanın ən böyük inşaat sərgisi-Bauma 2025 təşkil olunacaq.

-Aviabilet
-3 gecə 4 gün oteldə qonaqlama
-səhər yeməyi
-transferlər
-sərgiyə giriş bileti
-viza dəstəyi

Büdcə: 1800 usd
Tel.:0102500324

**Hörmətli sahibkarlar!**

Cari ilin 11 mart tarixi saat 09:30-da cənab nazir Mikayıl Cabbarov, İspaniyanın ölkəmizdə səlahiyyətli səfiri cənab Cristina Latorre Sancho və s. rəsmilərin iştirakı ilə Azərbaycan – İspaniya Biznes Forumu keçiriləcəkdir. Görüşdən sonra B2b olacaqdır.
Yerlər məhduddur.
Tel.: 0502653634



**Hörmətli sahibkarlar!**

ATMİA İdarə Heyəti üzvü, Expo Home şirkətinin sahibi Şirin Şərifovun strateji tərəfdaşlarımızdan olan Dövlət Vergi Xidmətinin rəsmi mətbu orqanına tikinti sənayesi ilə bağlı verdiyini müsahibəni Sizə təqdim edirik.
https://vergiler.az/news/articles/33805.html



**Hörmətli sahibkarlar!**

ATMİA üzvlərindən gələn kütləvi müraciətə əsasən ATMİA Sosial adlı açıq whatsap qrup qurmağı planlayırıq. Həmin qrupda arzu edən hər kəs gündə 1 dəfə paylaşım edə biləcək, öz məhsul və xidmətinizi tanıda biləcəksiz. ATMİA sosial qrupuna üzv olmaq istiyənlərdən əməkdaşlarımızla əlaqə saxlaması xahiş olunur.
Tel.: 0502653634, 0102500324



# SƏRGİ/KONFRANS/FORUM

**Sərginin adı: MIR STEKLA 2025**

**Tarixlər: 05 - 09 mart 2025-ci il, 11-14 mart 2025-ci il,**

**Məkan: Expocentr Krasnaya Presnya yarmarkaları, Moskva (Rusiya)**

Beynəlxalq Şüşəqayırma Avadanlıqları Sərgisi, Alətlərin və Emal Avadanlıqlarının istehsalı, Şüşə məmulatlarının istehsalı

**Sərginin adı: BLACK AND CASPIAN SEA PORTS AND LOGISTICS 2025**

**Tarixlər: 25-27 mart 2025-ci il,**

**Məkan: Tbilisi (Gürcüstan)**

Qara və Xəzər dəniz limanları, gəmiçilik və logistika sərgi və konfransı

**Sərginin adı: ARCHITECTURE BUILDING WEEK 2025**

**Tarixlər: 26-29 mart 2025-ci il,**

**Məkan: İnter Ekspo Mərkəzi, Sofiya (Bolqarıstan)**

Enerji səmərəli, ekoloji və funksional tikinti üçün beynəlxalq biznes sərgisi

**Sərginin adı: BUILDTECH ASIA 2025**

**Tarixlər: 18-20 mart 2025-ci il**

**Məkan: Sinqapur Sərgisi, Sinqapur (Sinqapur)**

Sinqapurda Beynəlxalq Tikinti və İnşaat Sənayesi Sərgisi.

**Sərginin adı: BAIKAL CONSTRUCTION WEEK 2025**

**Tarixlər: 20-22 mart 2025-ci il,**

**Məkan: Sibexpocentre, İrkutsk (Rusiya)**

Müasir bina və tikililərin tikintisi üçün texnologiya və avadanlıqların, materialların və xidmətlərin müxtəlifliyini təqdim edir.

**Naxçıvanda sosial evlər tikiləcək - TENDER ELANI**

“MİDA” MMC açıq tender elan edir.
Elanda Naxçıvan şəhəri, Əliqulu Qəmküsar küçəsində 4,98 ha torpaq sahəsində yaşayış kompleksinin tikinti layihəsinin hazırlanması nəzərdə tutulur.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Əliyev Vüqar, Satınalmaların təşkili şöbəsi-Şöbə müdirinin müavini
Email : vugar.aliyev@mida.gov.az
Əlaqə telefonu : (+99412) 594-54-01 239



**"REGİONAL SU MELİORASİYA XİDMƏTİ" PUBLİK HÜQUQİ ŞƏXSİ TENDER ELAN ETDİ**

“Regional Su Meliorasiya Xidməti" Publik Hüquqi Şəxsi açıq tender elan edir. Elanda Pensərçaydan qidalanan Şahsarvanı magistral kanalının beton üzlüyə alınması (L=1,0 km, 0,35 m3) və əsaslı təmirinin satın alınması nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Elşad Fərəcov, Satınalmaların təşkili sektoru Şöbə müdirinin müavini-sektor müdiri
Email: elshad.ferecov@rsmx.gov.az
Əlaqə telefonu : 012 377-07-70 (daxili 601)



## ŞİRVAN ŞƏHƏR İCRA HAKİMİYYƏTİ TENDER ELAN EDİR.

Azərbaycan Respublikası Şirvan Şəhər İcra Hakimiyyəti Başçısının 1 Nömrəli Sahə İnzibati Ərazi Dairəsi Üzrə Nümayəndəliyi açıq tender elan edir.
Elanda Şirvan şəhərində yolların əsaslı təmiri nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Əskərov Mirəli, Baş məsləhətçi Baş mühasib
Email : eskerov_mirali@mail.ru
Əlaqə telefonu : 21-215-32-88



**NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ TENDER ELAN EDİR.**

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ açıq tender elan edir.
Elanda Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi Naxçıvan Dövlət Universiteti üçün zəruri olan Təmir - Tikinti materialların satınalınması nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Ziya Kərim-zadə, Satınalma və Təchizat bölməsinin müdiri
Email: kerimzadeziya@ndu.edu.az
Əlaqə telefonu : +994507278558



**AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİ TENDERLƏR ELAN EDİLDİ.**

Azərbaycan Respublikası Müdafiə Nazirliyi açıq tender elan edir.
Elanda Azərbaycan Ordusunun hərbi hissələri üçün inşaat materialları və əlaqədar digər malların satın alınması nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Vüqar Abbasov, Satınalma komissiyasının üzvü
Email : sti-bz2@mod.gov.az
Əlaqə telefonu : 012-525-37-92



